# Dövlət rüsumu haqqında

# Azərbaycan Respublikasının Qanunu

## *Maddə 24. Azərbaycan Respublikası ərazisində beynəlxalq avtomobil daşımalarını tənzimləyən icazənin verilməsi üçün dövlət rüsumunun dərəcələri*

| Dövlət rüsumu tutulmalı olan hərəkətlər | Dövlət rüsumunun məbləği |
|---|---|
| *24.1. Giriş-çıxış və tranzit gedişinə görə:* | |
| *24.1.2. Beynəlxalq avtomobil daşımalarına aid Azərbaycan Respublikası ilə Hökumətlərarası Sazişi olan xarici dövlətlərin yük və sərnişin avtomobil daşıyıcıları üçün giriş-çıxış və tranzit keçid kvota ilə müəyyən edildiyindən artıq olduqda ödəniş haqqı:* | |
| *24.1.2.1. Yük avtomobilləri üçün* | *hər bir icazə üçün—100 ABŞ dolları.* |
| *24.1.2.2. Sərnişin avtobusları üçün* | *hər bir icazə üçün—50 ABŞ dolları.* |
| *24.1.3. Beynəlxalq avtomobil daşımalarına aid Azərbaycan Respublikası ilə Hökumətlərarası Sazişi olmayan yük və sərnişin avtomobil daşıyıcıları üçün:* | |
| *24.1.3.1. Yük avtomobilləri üçün* | *hər bir icazə üçün—150 ABŞ dolları.* |
| *24.1.3.2. Sərnişin avtobusları üçün* | *hər bir icazə üçün—75 ABŞ dolları.* |
| 24.2. Xarici avtomaşınların Azərbaycan Respublikası ərazisində yüklənməsinə görə. | hər bir icazə üçün 100 ABŞ dolları |
| 24.3. Üçüncü ölkəyə və üçüncü ölkədən daşımalar üçün. | hər bir icazə üçün 600 ABŞ dolları |
| 24.4. Xarici nəqliyyat vasitələrinin Azərbaycan Respublikası ərazisinə yüksüz daxil olması üçün: | |
| 24.4.1. yük avtonəqliyyat vasitələrinin yüksüz daxil olması üçün; | hər bir icazə üçün 350 ABŞ dolları |
| 24.4.2. avtobusların sərnişinsiz daxil olması üçün. | hər bir icazə üçün 80 ABŞ dolları |
| 24.5. İri tonnajlı xarici yük avtonəqliyyat vasitələrinin Bakı, Sumqayıt və Gəncə şəhərlərinə daxil olması üçün. | hər bir icazə üçün 25 ABŞ dolları |

## *Maddə 25. Azərbaycan Respublikası ərazisində beynəlxalq avtomobil daşımalarını tənzimləyən icazənin verilməsi üçün dövlət rüsumunun tutulmasının xüsusiyyətləri*

Azərbaycan Respublikasının avtomobil daşıyıcılarına digər dövlətlərdə bu Qanunla müəyyən edilmiş dövlət rüsumundan əlavə dövlət rüsumu tətbiq edildikdə həmin ölkələrin avtomobil daşıyıcılarına eyni qaydada dövlət rüsumu tətbiq edilir.